**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

Bakı şəhəri № 226/7 20 dekabr 2011-ci il

Azərbaycan Respublikasında auditor xidmətinin İnkişaf Konsepsiyasının hazırlanması (2011-2015-ci illər) barədə

Auditorlar Palatasının 2011-2013-cü illər üzrə iş planının və Palata Şurasının 2011-ci il üzrə iş planının - "Azərbaycan Respublikasında auditor xidmətinin İnkişaf Konsepsiyasının hazırlanması (2011-2015-ci illər)" barədə 1.1-ci və 2-ci müvafiq bəndlərinin icrası ilə əlaqədar Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun məruzəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun "Azərbaycan Respublikasında auditor xidmətinin İnkişaf Konsepsiyasının hazırlanması (2011-2015-ci illər)" barədə məruzəsi nəzərə alınsın (əlavə olunur).

2. Palatanın işçi qrupuna tapşırılsın ki, Azərbaycan Respublikasında auditor xidmətinin İnkişaf Konsepsiyasının hazırlanması (2011-2015-ci illər) ilə bağlı 2012-ci ildə zəruri işlərin yerinə yetirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**